# RUHUN AZADLIĞINI TƏRƏNNÜM



**_Mahmud ALLAHMANLI,_**
**_filologiya elmləri doktoru,_**
**_professor_**

Yazıçı-publisist Şəddat Cəfərovun "Sabir Rüstəmxanlı yolu" adlı ədəbi düşüncələr kitabının nəşrə hazırlanan nüsxəsini vərəqləyirəm. Yazılar, haqqında bəhs olunan sənətkarın nə qədər şəxsi taleyinə, yaradıcılıq yoluna işıq salırsa, bir o qədər də onun azadlıq uğrunda mübarizələrinə güzgü tutur. Hiss olunur ki, Şəddat müəllim Sabir Rüstəmxanlının son dövr yaradıcılığını kifayət qədər öyrənib. Xüsusilə onun "Qarabağa dönüş" poema-eposunu birər-birər izləyib. Burada bir məqamı da qeyd etmək istərdim. Şair-publisist Əli Rza Xələfli Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poemasını poema-epos adlandırır. Zənnimcə, janrın təyin edilməsi məsələsi nə qədər mübahisəli olsa da, onun mövqeyi daha çox həqiqətə yaxındır. Çünki "Qarabağa dönüş" poemasında sənətkarın təkcə Qarabağ uğrunda savaşın II dövrü yox, bütövlükdə ruh azadlığı uğrunda mübarizənin tərənnümünü görürük.

İndi bir qədər Sabir Rüstəmxanlı haqqında düşüncələrimi də oxuculara çatdırmaq istərdim. Xalq şairi, görkəmli ictimai-siyasi xadim Sabir Rüstəmxanlının bütün yaradıcılığı mənsub olduğu xalqın ruhunun azadlığı uğrunda mübarizəyə həsr olunub. O, hələ Sovet hakimiyyəti illərində bir şair intuisiyası ilə hiss edirdi ki, zəngin mənəvi sərvətləri, şərəfli tarixi keçmişi olan xalq ərazisini işğal etmiş güc dövlətinin əsarətində qala bilməz.

Görkəmli sənətkar Azərbaycan tarixinin ən ağrılı səhifələrini, bir xalqın faciəsi kimi yaşanmış hadisələri həmişə poetik mətnə gətirməyə çalışmış, "kommunizmə nəğmələr" oxunan bir dövrdə həqiqətləri insanların ruhuna yeritmək istəmişdir. Zaman göstərdi ki, Sabir Rüstəmxanlının mövqeyi onun mübarizəsinin mahiyyəti ilə bağlı olub. Ona görə də bu yoldan illər ötdükcə nəinki dönməyib, hətta mübarizələrini bir qədər də sərtləşdirib, qətiləşdirib. O, hələ sovet dövründə çap etdirdiyi poetik kitablarının hamısında vətəni məhz Azərbaycan anlamında görür və tərənnüm edirdi. Özü də Sabir Rüstəmxanlının vətən anlamı böyük Azərbaycanı əhatə edirdi. Əgər bu görkəmli sənətkarın şeirlərini ardıcıl izləsək, onun poetik rəngləri ilə biz Azərbaycan xəritəsinin tarixi ərazilərinin bütöv mənzərəsini görə bilərik. Əqidəcə, məsləkinə görə alovlu vətənpərvər olan Sabir Rüstəmxanlının istər publisistikası, istərsə də, nəsri məhz poeziyasının davamı kimi qavranılır. O, poeziyada necə alovlu söz ustadı kimi çıxış edirdisə, nəsrində də, publisistikasında da eləcə fəal vətəndaş mövqeyini qoruyub-saxlayır. Sevindirici haldır ki, bu gün də Sabir Rüstəmxanlının yaradıcılığı onun mübarizələrdən çəkinməyən mənəvi mühitinin güzgüsüdür. "Difai", "Cavad xan" kimi romanların, ssenarilərin müəllifi olan Sabir Rüstəmxanlı təbiət etibarı ilə xalqına çox bağlıdır. Ona görə də o, xalqın istək və arzularını yaradıcılığında ürək çırpıntıları ilə ifadə edir.

Xalq nə vaxt öz sənətkarını sevir və sənətkar nə vaxt bütün varlığı ilə xalqına bağlı olur? Şübhəsiz, xalq hiss edəndə ki, sənətkar sözü ilə, sənəti ilə, mübarizələri ilə xalqın ruhuna çökmüş qaranlıqları dağıtmağa çalışır, onda xalq sənətkarı başa düşür, onu özünün fədakarı kimi qəbul edir. Elə buna görə də xalq ruh etibarı ilə ona bağlı olan sənətkarı uca tutur, ona sonsuz sevgi bəsləyir. Bəs nə vaxt sənətkar bütün varlığı ilə xalqına bağlı olur - sualına isə cavab verməli olsaq, belə bir qənaətimizi hər kəslə bölüşə bilərik; insanlar sevgini həmişə uca tuturlar. Xalq da onu sevən sənətkarı əzizlədiyi kimi, sənətkar da öz xalqının bağrından qopmuş olduğu üçün xalqına sonsuz sevgi və məhəbbət bəsləyir. Sabir Rüstəmxanlının bütün yaradıcılığında biz onun xalq sevgisinin necə yanğı ilə ifadə olunduğunu açıq-aşkar görə bilərik.

Yuxarıda biz Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poetik əsəri haqqında bir neçə kəlmə dedik. Şəddat Cəfərov bu əsərə xüsusi həssaslıqla yanaşır. Sabir Rüstəmxanlını Qarabağ mövzusuna gətirən yolun biz əslində onun özünü poeziyada dərk etdiyi gündən başlandığını inamla qeyd edə bilərik. Sabir Rüstəmxanlı bütün varlığı ilə Qarabağın azadlığını, düşməndən təmizlənməsini görmək istəyirdi. Əslində o, ruh etibarı ilə "Qarabağa dönüş" poemasının bütün üfüqlərini öz varlığında görür və hiss edirdi. Şəddat Cəfərov Sabir Rüstəmxanlının "Qarabağa dönüş" əsərinə qədərki psixoloji mühiti "Yolumuzun Qarabağa dönüş taleyi" adlı yazısının lap əvvəlində qeyd edir: *"Azərbaycan xalqı az qala, bir qərinə qədər dözdü. Dünyanın indiki düzənində ədalətin, haqqın nə qədər maraqdan və mənafedən asılı olmasına baxmayaraq, yenə söz sahiblərindən haqq işimizin ədalətlə həll olunacağına inamımızı itirmirdik. Çox təəssüf ki, biz bu təmənnada nə qədər səbir və təmkin göstərsək də, işğalçını, demək olar ki, adı ilə göstərən yox idi. Vaxt ötdükcə ermənilər ikili standartlara güvənərək Avropanın müvafiq qurumlarında özlərinə tərəfdar yığmaqda idilər. Azərbaycan xalqının səbri tükənmişdi. Ali Baş Komandan dəfələrlə bəyanat verdi, xəbərdarlıq etdi. Hətta ermənilərin sülhə gəlib işğal etdikləri əraziləri boşaldacağı təqdirdə onlara Azərbaycanda yaşamaq amnistiyasının veriləcəyini də təkrar-təkrar vəd edirdi. Azğınlaşmış düşmən qətiyyən doğru yola yönəlmək niyyətində olmadığını öz əməli ilə göstərməkdə idi. Hətta atəşkəsi pozur, işğal etdikləri ərazilərdən kənarda da dinc əhalinin yaşamasına təhlükə törədirdilər. Sərhəd boyu snayperlərin gülləsinə tuş gələn dinc sakinlərin öldürülməsi artıq son həddin çatdığını göstərirdi. Beləliklə, Azərbaycanın haqq savaşı 2020-ci ilin 27 sentyabrında başladı. Hətta bu zaman da Azərbaycan ordusu Tovuz rayonunun ərazisindən hücuma keçmiş düşmənə əks həmlə ilə cavab verdi. Azərbaycan ordusunun qəhrəman oğulları polkovnik İlqar Mirzəyev, general Polad Həşimov sənərdə həlak oldular. Bu, artıq birmənalı şəkildə sərt cavab tələb edən əməl idi".* Qarabağ uğrunda savaşın başlandığı anlar gözümüzün önünə gəlir. Cəbhə boyu bütün əsgərlərimiz artıq savaşa hazır idi. Onlar birmənalı şəkildə düşməni torpaqlarımızdan qovmaq gücündə olduqlarını hiss edirdilər. Şübhəsiz, bu qətiyyət, bu inam orduda aparılan vətənpərvərlik tərbiyəsinin bəhrəsi idi. Eyni zamanda xalq demək olar ki, bir nəfər kimi küçələrə çıxır, Qarabağın azad edilməsini tələb edir. Düşmənə layiqli cavab verməyin vaxtı çatdığını bildirirdi. Azərbaycan ordusunun igid polkovnikinin və generalının məhz cəbhədə həlak olması artıq tarixin səbrini daşdırmışdı. Hər kəs qaradan artıq rəng olmadığını yaxşı görür və hiss edirdi. Bütün bunları təsadüfi qeyd etmirik. Burada "Sabir Rüstəmxanlı yolu" kitabının məziyyətlərinə işıq salmaq üçün müvafiq məqamın mahiyyətini görürük. Şəddat Cəfərov öz qeydlərində ermənilərin işğalçılıq iddialarından əl çəkmədiyini, hətta məqamı düşəndə onların Azərbaycan xalqına hədələr göndərdiyini də diqqətdən qaçırmır. Bütün bunları bir Azərbaycan ziyalısı görür və hadisələrin inkişafının istiqamətini də dəqiq müşahidə edirdi. Şəddat Cəfərov "Yolumuzun Qarabağa dönüş taleyi" yazısının davamında qeyd edir: *"Ermənilər nəyə güvənirdilər. Əlbəttə, onların xəyalları otuz ilin o tərəfində qalmışdı. Onlara dəstək verən qüvvələrin yenə qabağa çıxacağını gözləyirdilər. Doğrudur, belə qüvvələr yenə var idi və onlar Ermənistanın işğalçı ordusuna kömək etmək niyyətidən də geri çəkilməmişdilər. Ancaq Azərbaycanın mövud durumu artıq əvvəlki dövrdəki kimi deyildi. Azərbaycan kifayət qədər hərbi güc, ən başlıcası, müasir tələblərə cavab verən orduya malik idi. Yəqin ki, ermənilər Azərbaycan ordusunun canlı qüvvəsindəki qətiyyəti və qələbə inamını nəzərə almamışdılar. Erməni ideoloqları işğal etdikləri Azərbaycan torpaqlarının üstündə dayanıb hədə-qorxu gəlirdilər; "əgər Azərbaycan ordusu hərəkətə keçsə biz birbaşa Bakını hədəfə götürəcəyik" deyirdilər. Ancaq onların bu arzuları gözlərində qaldı. Söz yox, işğalçı ordunun da müəyyən üstünlükləri vardı. 30 il ərzində onlar Azərbaycan torpaqlarında möhkəmlənmək üçün bütün səylərini səfərbər etmişdilər. Məşhur "Ohanyan xətti" onlar üçün keçilməz sədd hesab olunurdu. Amma Azərbaycan ordusu hücuma başlayandan az sonra həmin xəttdəki müdafiə mövqelərini darmadağın elədi. Düşmən qüvvələri pərən-pərən düşdü. Suqovuşan tərəfdən aldığı zərbələrdən özünü itirmiş düşmən Araz boyu istiqamətdə hücumlara başlamaq, Azərbaycan ordusunun irəliləyən qüvvələrini mühasirəyə salmaq niyyətində idilər. Onların bu niyyətləri də iflasa uğradı. Beləliklə, Azərbaycan ordusunun bir neçə istiqamətdə irəli doğru hücumu qarşısıalınmaz hərəkətə çevrildi".* Bu yerdə bir məqam da yada düşür. Ali Baş Komadan həmin gərgin günlərdə səbri daşmaqda olan xalqa belə bir mesaj da verdi: "Mən nəyi nə vaxt icra etməyi yaxşı bilirəm". Sözün həqiqi mənasında bu qənaət əsl tarixi həqiqətə söykənirdi. Şəddat müəllimin qeyd etdiyi kimi biz artıq tarixin yeni mərhələsindəydik. Qeyri-adi hadisələrin baş verdiyinin təkcə şahidi deyildik, həm də iştirakçısı idik. Çünki xalq öz həyəcanları ilə sözün həqiqi mənasında böyük birlik nümayiş etdirərək həm Ali Baş Komandana, həm də orduya dəstək verməkdə idi. Həmin dövrdə axın-axın hərbi çağırış məntəqələrinə gəlir və birbaşa döyüşə getmək istədiklərini bəyan edirdilər. Şübhəsiz, belə bir axının içərisində biz Sabir Rüstəmxanlı ruhunu da hiss edirdik. Bu çox qürurlu bir məqam idi. Prezident dəfələrlə öz çıxışlarında qeyd edir ki, Qarabağ uğrunda savaşın əsas ağırlığını məhz onun dövründə doğulub boya-başa çatmış gənclər çəkmişdilər.

Həqiqətən Azərbaycan gəncliyinin yeni nəsli əsl vətənpərvərlər kimi böyümüş, vətəni öz varlıqlarında ideal olaraq qəbul etmişdilər. Sabir Rüstəmxanlı əsərinin ən emosional, hissiyyatlı məqamlarında tarixə ricətləri ilə oxucuların diqqətini səfərbər edir. Şəddat Cəfərov da poemanın məhz bu məqamlarını xüsusilə diqqətdə saxlayır və oxucularına mətni sözün müqəddəslik mahiyyətini çatdırmaq üçün təqdim edir:

*Adına qurban olum, ey adsız qəhrəmanım!*
*Ruhundakı tilsimə heyran olub durmuşam.*
*Siz Vətən fədaisi! Qəlbimdə həranizə*
*Neçə ləqəb düşünüb, neçə ad uydurmuşam.*

*Yürü, yürü, Mete xan! Burda da sərkərdəsən!*
*Arxanca qanadlanıb Qazanla Beyrək gəlir.*
*Gürşad saraylar yıxır, qırx igidi başında,*
*"Özgürlük?" deyə-deyə Xürrəmi Babək gəlir!*

**_(Davamı 11-ci səhifədə)_**

*(Əvvəli 10-cu səhifədə)*

*Gəlir Oğuz, Bayandur, Alparslan, Qızıl Arslan,*
*Çağrı bəyin yoluna düzülüb neçə oğul,*
*Siz bu günün Çingizi, siz bu günün Timuru,*
*Sizlərin simasında dirilibdir Ərtoğrul!*

*Sizin adınız şəhid, namus, qeyrət, intiqam,*
*Milyon-milyon adlı var, tüpürürlər adına.*
*Ata-ana ad verib böyütdülər sevgiylə,*
*Sonra da alışdılar pis övladın oduna.*

*Get, adsız qəhrəmanım, Qacar ala bilmədi*
*Bu qalanı seyr etdi dediyi o şüşədən.*
*Qala - təxəllüsündür, Qaya - sənin ayaman*
*Öz əsil adınısa alacaqsan Şuşadan...*

*Ya da ki, Dədəm Qorqud dilləndirib qopuzu*
*Türkün ölməz ruhundan verər sözə yeni can.*
*Deyər ki, ayırmıram sizi bir-birinizdən,*
*Şuşa fatehlərinin bir adı var: Qəhrəman!*

Kimsəyə sirr deyil ki, işğalçı Ermənistanın özü də bir gün cavab verməli olacağını yaxşı bilirdi. Elə bu səbəbdən də cəbhə boyu əraziləri minalayır, xüsusi müdafiə istehkamları yaradırdılar. Hətta onlar yaratdıqları müdafiə istehkamlarını o qədər dağıdılmaz hesab edirdilər ki, bu barədə az qala əfsanələr də uydururdular. Amma möhtəşəm Azərbaycan ordusunun qeyri-adi hücumları qarşısında düşmənin ən güclü hərbi hissələri belə davam gətirə bilmədilər. Azərbaycan ordusu müdafiə xəttini çox böyük sürətlə yardı. Biz Azərbaycan ordusunun bir-birinin arxasınca azad etdiyi torpaqlarımızın sevincini yaşadıq. Bu ediriksə, təqdim olunan mətnin də eləcə duyğusal olduğunu ruhumuza, varlığımıza sirayət etdiyini məmnunluqla bildiririk.

Sabir Rüstəmxanlı öz poemasında Azərbaycan əsgərinin igidliyindən danışır. Xalqımızın tarixi döyüş ənənələri, yenilməz türk ruhu haqqında yüksək poetik vüsətlə söz açan Sabir Rüstəmxanlı düşməni də yaddan çıxarmır. Əlbəttə, özgə torpaqlarında vuruşan düşmən cəsur ola bilməz. Azərbaycan əsgəri qorxmazdır, çünki ayaqları vətən torpaqları üzərindədir. Elə buna görə də yenilməz və qüdrətlidir. Amma düşmən əsgəri onun başının üstünü alan təhlükəni hiss edir. Ölümlə üzbəüz qaldığı üçün qorxusundan titrəyir. Sabir Rüstəmxanlı qorxaq düşmən obrazını kifayət qədər dolğunluğu ilə təqdim edir. Onun təsvirlərini birər-birər izləyən Şəddat Cəfərov da ədəbi-publisistik düşüncələrində üz-üzə döyüşdə olan tərəflərə dəqiq və aydın münasibət bildirir. Biz onun təsvirlərində də düşmənin qorxaq obrazını görürük. Çünki Azərbyacan ordusunun qorxmaz oğulları inamla irəliləyir. Bəli, Azərbaycan əsgəri yaxşı bilir ki, bu artıq savaşın son həddidir. Şəddat Cəfərov poemanın kövrək məqamlarına da ədəbi düşüncələrində yer ayırır. Onun qeydlərini elə poetik ruhun tərənnümü kimi oxuyuruq: *"Biz aciz, qorxaq düşmən obrazın da görürük. Titrəyə-titrəyə keşikdə dayanmış düşmən əsgəri gözləyir ki, növbəsi bitsin. Bu özgə torpaqda, yad torpaqda qanına-qəltan olmasın. Bəlkə elə bu gecədən salamat çıxsa, Ermənistana da salamat gedir. Ancaq bu düşüncələr başqa təəssürat da doğurur. Öz övladlarını Azərbaycanın işğalına göndərmiş mənfur düşmən həqiqəti nəhayət ki, etiraf etməliydi. Bu gün də Ermənistanda beyni zəhərlənmiş olan* torpaqlar necə oğulların, hansı oğulların iradəsi ilə düşmən tapdağından azad edilib. Sabir Rüstəmxanlının poemasından bir parçanı Şəddat Cəfərov oxuculara çatdırır:

"Qardaş, sən burax məni, ağıram, üzülmə, get!
Bax Şuşaya doyunca, mənim də gözümlə, get!"

"Şuşaya öz gözünlə, sapsağlam baxacaqsan!"
Belə deyir əsgərim yaralı qardaşına.
Allah ona güc verir, coşur damarında qan,
Hamıdan tez dırmanır qayaların başına!

Şəddat Cəfərov




# RUHUN AZADLIĞINI TƏRƏNNÜM

hissləri Sabir Rüstəmxanlı öz poemasında necə həssaslıqla verirsə, Şəddat Cəfərov da elə həmin duyğulara müvazi olaraq ədəbi-publisistik düşüncələrində öz sözü ilə güzgü tutur: *"Necədir, əziz oxucu? Özünü harada hiss edirsən? Mənə elə gəlir ki, qəlbində vətən yanğısı, əsgərinə məhəbbəti olan hər kəs özünü məhz bu savaşın içində hihh edər. Özünü də əsgər hesab edər, özünü də döyüşçü bilər. Şairin özü də sanki döyüş əmri verən komandirlərdən biri kimi görünür. Ən başlıcası, biz oun qayğılı ata səsini, onun öz oğluna məhəbbətini də bu misralardan duya bilirik. Görün necə də xüsusi bir məhəbbətlə qəlbi titrəyə-titrəyə deyir ki, oğlum ehtiyatlı ol, ayağından qaçar daş. Bu sözləri ancaq qəlbən, ruhən öz əsgərinə bağlı olan komandan, ata deyər bilər. Təkrar-təkrar biz Azərbayacan əsgərinin güc, inam mənbəyindən yazırıq. Bu yerdə artıq ayrıca qeyd etməliyik ki, Azərbaycan əsgəri dogma yerlərdə savaşdığı üçün güclü idi. Azərbaycan əsgərinə hər qaya, hər daş kömək edirdi. İndi ermənilərin sağ qalmış döyüşçüləri də etiraf edirlər ki, Şuşaya hücum edən əsgərlər üçün ölüm yox idi. Hətta onlar güllə ilə vurulandan sonra belə durub irəliyə şığıyırdı. Bu, düşmənin etirafıdır. Ancaq biz özümüz də bu həqiqətləri artıq kifayət qədər bilirik və qavrayırıq. S.Rüstəmxanlı öz əsərini cansız daş, cansız qaya obrazları ilə bəzəmir, onun əsərində qaya da, daş da, gözlə görünən nə varsa, hamısı da canlıdır. Ən başlıcası, keçilməz sıldırım qayalardan qalxaraq Şuşaya can atan əsgər Şuşanın öz səsini eşidir, Şuşanın canlı varlıq kimi çağırışına gedir. Bu yerdə onu da demək lazımdır ki, vətən yolunda tökülən qanlar havayı axıb getməyib. S.Rüstəmxanlının təbirincə desək, Xocalıda axan qan torpağa axan torpağa hopmayıb, həmin qan bu gün Şuşanı azad etməyə doğru gedən əsgərin damarında çağlayır. əsərdə bu tipli, qeyri-adi düşüncə kəşfləri olan məqamları az deyil. Zənnimcə, əsəri oxunaqlı edən, oxucu qəlbiini titrədən məqamlar məhz bu mənalarla bağlıdır".* Sabir Rüstəmxanlının poemasının insan ruhuna təsirini necə hiss *qisasçılara qarşı analar etiraz edir, oğullarını Qarabağa göndərmək niyyətindən daşınmalarını tələb edir. Amma düşmən əsgərindən fərqli olaraq Azərbaycan əsgəri güllə dəyib qanı axa-axa da olsa belə, özünü Şuşaya çatdırmaq, Şuşanın daşına, torpağına salam vermək istəyindən qətiyyən dönmür. O bütün gücü ilə inanır ki, tezliklə ədalət günəşi doğacaq, məhz onun gücü ilə bu günəşin qarşısını kəsmiş buludlar dağıdılacaq. Azərbaycan xalqı özünün haqqına çatacaq. Əsl məramına sahib olacaq. Azərbaycan torpaqlarının suverenliyi bərpa olunacaq. Çox keçmədi ki, biz bu həqiqətləri Laçın sərhədləri bağlananda gördük. Düşmənin nə qədər aciz bir durumda olduğunu maşhidə etmək çox nadir bir mənzərə idi. Bir vaxt Azərbaycan torpağına soxulub, burada qanlar axıdan düşmən yalvara-yalvara qaçıb canını qurtarmaq istəyirdi. Amma əlbəttə, tarix heç nəyi əvəzsiz qoymur. Axır ki, Azərbaycan əsgəri bütün qəddarlara, yırtıcılara layiqli cəza verir. Azərbaycan əsgəri tarix üçün ibrtli bir məqamı da dərs qoydu. Heç bir Azərbaycan əsgəri yaralanıbsa, həlak olubsa, döyüş meydanında atılmadı. Öz döyüşçü dostu, qardaşı köməyini əsirgəmədi. Yaralı əsgər dostunu yaralı halda çiynində qaldıran Azərbaycan əsgərinin nəyə qadir olduğunu, ən başlıcası, insanlıq simasının nə qədər ucada olduğunu görmək bizdə fəxarət doğururdu".* Biz tarixin ayrı-ayrı dönəmlərində müxtəlif müharibə mövzulu əsərlərdə yaralı əsgər obrazları haqqında çox oxumuşuq. Döyüşünün, savaşının ədalətli olduğunu, haqqın uğrunda vuruşduğunu bilən əsgər son nəfəsinəcən inamından və inadından dönmür. Döyüşün, cəngin, savaşın qalan mərhələsində də yaralı canı ilə iştirak etmək istəyir.

Bütün bunlar müharibəyə xas olan hadisələrdir. Bu elə düşüncədir ki, yalnız həmin səhnələri dəqiq və aydın təsəvvür edə bilənlər bunun nə demək olduğunu başa düşərlər. Sabir Rüstəmxanlı da öz əsərində yaralı əsgərin dilindən səslənən pıçıltıları gələcəyə sanki manifest kimi təqdim edir. Yəni, gələcək nəsillər bilməlidirlər ki, bu

Düşmənin əcəlidir dərələrdən dikələn,
Haraya girir-girsin, tapacaq, endirəcək.
Neçə profektoru sübhün əsintisiylə,
Ya da öz nəfəsiylə şam kimi söndürəcək!

Üzeyirin Cəngisi birdən gəlmişdi dilə
Xanın, Seyidin ruhu Heyratı çaldırırdı.
Şəhid qəhrəmanlarım görünməz əllәriylə
Adsız qəhrəmanları Qalaya qaldırırdı!

Çox təsirli səhnədir. Sabir Rüstəmxanlı ustad sənətkar olduğu üçün ən kiçik epizodu belə xalqın ruhu ilə bağlaya bilir. Xalqın təbiətindən gələn ən üstün keyfiyyətləri həmin kiçik epizodlarda bütün möhtəşəmliyi ilə verə bilir.

Bir məsələni də qeyd etmək yerinə düşər. Qarabağın işğaldan azad dilməsinə dair ötən müddət ərzində yazıçılarımız, publisistlərimiz, şairlərimiz çox dəyərli əsərlər yaradıblar. Vətən uğrunda həlak olan şəhidlərin xatirəsinə həsr olunmuş ədəbi-publisistik əsərləri, poetik sənət nümunələri hələ də qızğınlıqla yazılmaqda davam edir.

Ancaq unutmaq olmaz ki, möhtəşəm tarixi qələbəmiz haqqında nə qədər çox yazılırsa, yazılsın, deyilənlər, yazılanlar hələ də kifayət deyil. Xüsusilə əsl həqiqətləri gələcək nəsillərə çatdırmaq üçün tarixçilərimiz ciddi təhlillər aparmalı, müharibənin xronikasını öz tədqiqatlarında dəqiq və ardıcıllıqla verməlidirlər. Bütün bunlar gələcəyə hesablanan məsələdir, gələcək nəsillərin mənəvi durumunun qorunmasına xidmət edir.

Sabir Rüstəmxanlının bu xüsusi bədii və tarixi dəyəri olan poeması haqqında Şəddat Cəfərov daha bir yazısını "Tanrı işğımızın Qarabağa dönüşü" adlandırır. Zənnimcə, başlıq çox uğurludur. Çünki tanrı işığı o kəslərin yoluna nur saçır ki, onlar həqiqət yolundadır. Doğrunu, ədaləti müdafiə edir, haqqa yürüyür.

*(Davamı var)*